# DNF şəffaflıq kriteriyaları üzrə nümunəvi qurum

## Neft siyasətində bu prinsipin qorunması əldə olunan uğurları şərtləndirən başlıca amillərdəndir

***Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizəsində öz təbii sərvətlərinin sahibi olmaq arzusu əsas məqsədlərdən biri olub. Çox təəssüflər olsun ki, müstəqilliyimizi 1991-ci ildə bərpa etsək də həmin dövrdə ölkəyə rəhbərlik edənlərin idarəçilik qabiliyyətlərinin yoxluğu, şəxsi maraqlarını dövlətin mənafeyindən üstün tutmaları bu sevinci xalqa yaşatmadı. Azərbaycan xalqı yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra öz təbii sərvətlərinin əsil sahibinə çevrildi. Bu gün iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan xalqı uzun illər boyu ürəyində gəzdirdiyi arzusuna çatmış, öz təbii sərvətlərinin, o cümlədən neftinin tam sahibidir, ondan necə istifadə olunmasını sərbəst şəkildə müəyyən edir.***



"Bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur və bu sərvətlərdən istifadə olunmasında heç bir nəslin müstəsna haqqı yoxdur. 1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən xalqın rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir." Ulu öndər Heydər Əliyev iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün əsas olduğunu önə çəkərək, bu istiqamətdə məqsədyönlü addımlar atdı.

Azərbaycan dünyada neft diyarı kimi tanınır. Ölkəmiz malik olduğu təbii resurslara, yerləşdiyi coğrafi məkana görə daim dünyanın diqqət və marağında olub. Lakin bu diqqət müxtəlif dövrlər üçün fərqlidir. 1994-cü ildən bəri ölkədə sabitliyin, normal biznes mühitinin yaradılması Azərbaycanı böyük investisiyalar məkanına çevirdi.

Ümummilli lider Heydər Əliyev bildirirdi: "Dünya təcrübəsi *də bu həqiqəti təsdiq edir* ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz." 1994-cü ilin sentyabrın 20-də imzalanan, tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft müqaviləsi Azərbaycanın iqtisadi və siyasi tərəqqisi üçün geniş imkanlar açdı. Ölkənin maliyyə vəsaitinin məhdudluğu şəraitində xarici şirkətləri sərmayə qoyuluşuna cəlb etmək vacib şərtlərdən hesab olunurdu.

Təbii ki, müstəqil dövlətimizin bütün sahələrdə əldə etdiyi müsbət göstəricilərin əsasında müəllifi ulu öndər Heydər Əliyev olan yeni neft strategiyası və hazırda onun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dayanır.

"Əsrin müqaviləsi"nin ölkəmiz üçün iqtisadi və siyasi əhəmiyyətini görmək, ən əsası düzgün qiymətləndirmək üçün həmin dövrdən ötən müddətdə Azərbaycanın keçdiyi inkişaf yoluna nəzər salmaq kifayətdir. Baxmayaraq ki, bu sazişin əhəmiyyətini, BTC neft kəmərinin iqtisadi imkanlarını azaltmağa cəhdlər olundu, müxtəlif qeyri-ciddi fikirlər səsləndi.

Ölkəmizin valyuta ehtiyatları 18 milyard dollardır. Bu vəsaitin 12 milyard dolları Dövlət Neft Fondunun payına düşür. Həmin vəsait əsasən qeyri-neft sektorunun inkişafına, Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın sosial problemlərinin həllinə yönəldilir. Dövlət başçısı bütün çıxışlarında neft gəlirlərindən səmərəli istifadənin vacibliyini diqqətə çatdırır.

Azərbaycanın bugünkü iqtisadi durumu beynəxalq mailyyə qurumlarının hesabatlarında da xüsusi qeyd olunur. Dünya Bankının məlumatına görə neft satışından 2020-ci ilə qədər 200 milyard dollar vəsait toplanacaq. Azərbaycanın hazırkı iqtisadi potensialının və maliyyə imkanlarının mövcud problemlərini təkbaşına həll etməyə imkan verdiyi də səslənən fikirlər arasındadır.

Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrin uğurla həyata keçirilməsi ölkəmizin iqtisadi və siyasi qüdrətini daha da artırır. Dövlət büdcəsinin son üç ildə 10 dəfə artması iqtisadi inkişafın hansı səviyyədə olduğunu açıqlayır. Ötən ilin dövlət büdcəsi 7,5 milyard manat idi. Cari ilin icmal büdcəsi 12 milyard manatdır.

İqtisadi potensialın artması maliyyə imkanlarının genişlənməsi ilə müşayiət olunur. Bu da özünü xalqın sosial-rifah halının yaxşılaşmasında qabarıq şəkildə büruzə verir. Özünə diqqətin və ölkədə yeniliyin şahidi olan xalqın həyata keçirilən siyasətin gələcəyinə də inamı gündən-günə artır.

Prezident İlham Əliyev çıxışlarında bu məsələyə xüsusi diqqət yönəldir. Neftlə zəngin ölkələrdə heç də əhalinin sosial durumu qənaətbəxş olmur. Lakin Azərbaycanda siyasətin düzgün qurulması belə bir problemin yaranmamasına əsas verir.

Azərbaycan neft-qaz ixracatçısına çevrilir. Ölkədə neft-qaz hasilatı artır. Prezident İlham Əliyevin vurğuladığı kimi, biz nəinki özümüzü qazla təmin etmişik, hətta qaz anbarlarını tamamilə doldurmuş, eyni zamanda Türkiyə və Gürcüstanı da mavi yanacaqla təchiz etmişik.

"1994-cü ildə Azərbaycanda Heydər Əliyevin təşəbbüsü ilə başlanmış işlər bu gün artıq qitə miqyası almışdır və söz yoxdur ki, gələcəkdə regionun geosiyasi konfiqurasiyasında, siyasi proseslərin və inteqrasiyanın inkişafında çox mühüm rol oynayacaqdır.» Prezident İlham Əliyev bugünkü uğurların gələcək üçün geniş imkanlar açdığını bildirir.

BTC və BTƏ neft-qaz kəmərlərinin reallığa çevrilməsi ilə Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevrilib. Ölkəmizin bugünkü iqtisadi imkanlarını nəzərə alan dünya dövlətləri, beynəlxalq təşkilatlar respublikamızın gələcəkdə bu rolunu daha da möhkəmləndirəcəyinə əminliklərini ifadə edirlər.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, yeri və rolunun artmasında, mövqelərinin genişlənməsində neft strategiyasının əhəmiyyətini xüsusi vurğulayan Prezident İlham Əliyev "Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasi kursu davam etdirilməlidir" vədinə sadiqlik nümayiş etdirməklə ölkəmizin hərtərəfli inkişafına nail olur.

Ölkə iqtisadiyyatının inkişafında neft sənayesinin rolunu önə çəkən dövlət başçısı İlham Əliyevin Bakı şəhərində Neft muzeyinin yaradılması ilə bağlı sərəncamı ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Sərəncamda da qeyd edildiyi kimi Azərbaycanda neft sənayesinin təşəkkülü, zəngin ənənələri, ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsində və bu gün davamlı artan potensialının əldə olunmasında müstəsna əhəmiyyəti, bəşər tarixinə verdiyi əvəzsiz töhfələri nəzərə alınaraq, respublikamızın neft salnaməsinin öyrənilməsini və təbliğinin gücləndirilməsini təmin etmək məqsədilə belə bir Muzeyin yaradılması günün tələbidir. Gənc nəslin milli sərvətlərimizə ehtiram ruhunda tərbiyə olunması vacib amillərdəndir.

Neft sənayesinin inkişafı daim dövlətin diqqət mərkəzində olub. Bu sahədə xidmət göstərəcək mütəxəssislərin yetişdirilməsi üçün də dövlət mühüm işlər görür. Məlumdur ki, ARDNŞ dövlət başçısının tapşırığına əsasən Təqaüd proqramı həyata keçirir. Bu proqram çərçivəsində gənclərimiz şirkətin maliyyə dəstəyi əsasında təhsillərini dünyanın nüfuzlu ali məktəblərində davam etdirirlər. Təbii ki, əldə olunan beynəlxalq təcrübəni ölkə iqtisadiyyatına tətbiq etmək olduqca əhəmiyyətlidir.

"Neft bizim üçün məqsəd yox, vasitə olmalıdır" deyən Prezident İlham Əliyev bu gün ölkəmizin iqtisadi və siyasi qüdrətinin artmasında, əsil söz sahibinə çevrilməsində bu amilin rolunu xüsusi qeyd edir. Azərbaycanın iştirakı olmadan bölgədə hansısa bir iqtisadi və siyasi layihənin reallaşmasından söhbət gedə bilmirsə, bu, dövlətimizin düşünülmüş və məqsədyönlü siyasətinin nəticəsidir.

Son beş ildə iqtisadiyyat 2,6 dəfə artıb, adambaşına düşən gəlir 5500 dollara çatmışdır. Sənaye istehsalı 2,5 dəfə artmış, sənayeləşmə prosesi geniş vüsət alıb. Bunun nəticəsində 766 min yeni iş yeri açılıb ki, bunların da 547 mini daimidir. Məqsədyönlü tədbirlər nəticəsində ölkədə 27 mindən çox yeni müəssisə yaradılıb. Yoxsulluğun səviyyəsi 49 faizdən 13,2 faizə enib.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi iqtisadi göstəricilər təkcə rəqəmlərdə deyil, insanların gündəlik həyatında da özünü göstərir. Son beş ildə əhalinin gəlirləri 4 dəfə, minimum əmək haqqı 8,3 dəfə, minimum pensiya təxminən 4 dəfə artıb. Minlərlə ailənin ünvanlı sosial yardım alması güclü sosial siyasətin həyata keçirildiyini, iqtisadi imkanların aztəminatlı təbəqənin yaşayışının yaxşılaşdırılmasına yönəldildiyini təsdiqləyən əsas amillərdəndir.

Böyük neft-qaz layihələrinin əsas iştirakçısı və təşəbbüsçüsü olan ölkəmiz hazırda dünyada iqtisadiyyatı sürətlə inkişaf edən dövlət kimi tanınmaqla yanaşı, əsil söz sahibinə çevrilib. Beynəlxalq maliyyə qurumları mütəmadi olaraq açıqladıqları hesabatlarında Azərbaycanın ÜDM istehsalının həcminə görə dünyada öncül yerdə dayanmasını düzgün qurulan iqtisadi siyasət, neft və qaz istehsalının ildən-ilə artması ilə əlaqələndirirlər. Hazırda dünya iqtisadi və maliyyə böhranını yaşadığı halda Azərbaycan iqtisadiyyatında artım diqqətdən yayınmır.

Dövlət başçısı çıxışlarında bu fikri hər zaman bildirir ki, neft-qaz amili bu gün və gələcəkdə də ölkəmizin inkişafı üçün öz müsbət rolunu oynayacaq. Amma əsas vəzifə iqtisadiyyatın inkişafının neft amilindən asılılığını azaltmaq, qeyri-neft sektorunun inkişafını sürətləndirməkdir. "Biz çalışmalıyıq və çalışırıq ki, bu gözəl imkanlardan gələcəkdə də səmərəli istifadə edək, Azərbaycanı hərtərəfli inkişaf etdirək. Bu gün Azərbaycanın enerji potensialı ölkəmizin hərtərəfli inkişafına xidmət göstərir. Biz neft kapitalını insan kapitalına çeviririk. Bu gün neftdən əldə olunan gəlirlər sosial məsələlərin həllinə yönəldilib. Bu gün işğaldan əziyyət çəkən soydaşlarımız yeni qəsəbələrə köçürülür. Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayıb. Bu, məhz, neft siyasətinin sayəsində mümkün olub. Minlərlə yeni məktəblər, yüzlərlə yeni xəstəxanalar, yollar, elektrik stansiyaları bugünkü Azərbaycanın reallıqlarıdır və bunun təməlində enerji siyasəti dayanır." Prezident İlham Əliyev neft-qaz sahəsində əldə edilmiş şəffaflığın bütün maliyyə sektoruna şamil edilməsinin vacibliyini bildirir.

Neftdən əldə olunan gəlirlərin səmərəli istifadəsi mühüm sosial-iqtisadi layihələri həyata keçirmək üçün geniş imkanlar açır. Prezident İlham Əliyev daim çıxışlarında neft gəlirlərindən istifadəyə nəzarətin gücləndirilməsinin vacibliyini biildirir. Neftdən əldə olunan gəlirlər Dövlət Neft Fondunda toplanır. 1999-cu ildə ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində yaradılan Dövlət Neft Fondunun fəaliyyətini yüksək qiymətləndirən dövlət başçısı onun şəffaflıq kriteriyaları üzrə nümunəvi qurum olduğunu bildirir. Azərbaycan ilk ölkələrdəndir ki, Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsünə qoşulub. Ölkəmiz bu təşəbbüsdə aparıcı rol oynayır.

Dövlət Neft Fondu mütəmadi olaraq toplanan vəsait, onların təyinatı üzrə xərclənməsi barədə ətraflı məlumat verir. Cari ilin birinci yarısında Dövlət Neft Fondu maliyyələşdirdiyi layihələr üzrə işləri davam etdirib. Neft Fondundan dövlət büdcəsinə transferlər aparılıb. Belə ki, 2009-cu il büdcəsinin icrası çərçivəsində 2 530,0 milyon manat vəsait dövlət büdcəsinə transfer edilib. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 20,2 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması və Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilişi layihələrinin maliyyələşdirilməsi məqsədilə isə müvafiq olaraq 61,9 milyon manat və 68,5 milyon manat vəsait ayrılıb. 1,1 milyon manat Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə yönəldilib. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi davam etdirilir. Bu ilin 6 ayında Neft Fondundan 1,3 milyon manat vəsait ayrılıb. 2009-cu ilin ilk 6 ayı ərzində Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri 2,7 milyon manat olub.

Beləliklə, 2009-cu il iyulun 1-nə Fondun aktivləri ilin əvvəlinə nisbətən 6,35 faiz artaraq 9 557,7 milyon manata (11 886,4 milyon ABŞ dolları) bərabər olmuşdur.

İyulun sonuna olan məlumata görə isə Dövlət Neft Fondunun idarə etdiyi aktivlərin həcmi 12 milyard dolları keçərək, 12 milyard 187 milyon ABŞ dolları təşkil edir.

Göründüyü kimi neftdən əldə edilmiş gəlirlər səmərəli şəkildə istifadə olunur, xalqın milli maraqlarının müdafiəsinə sərf edilir.

Azərbaycanın bugünkü iqtisadi qüdrətini və maliyyə imkanlarını önə çəkən beynəlxalq maliyyə qurumları bildirirlər ki, ölkəmiz heç bir yardıma ehtiyacı olmadan mövcud problemlərini həll etməyə qadirdir. Lakin dövlət başçısı İlham Əliyev Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi ilə yanaşı, məcburi köçkün problemini də yaşadığını önə çəkərək bildirir ki, onların sosial problemlərinin həlli də daim dövlətin diqqətindədir. 2007-ci ilin sonuna qədər dövlət başçısı aidiyyatı qurumların qarşısında bir dənə də olsun çadır şəhərciyinin qalmayacağı tapşırığını qoymuşdu. Bu məsələ öz müsbət həllini tapdı. Öz doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımız üçün yaşayış binaları tikilərək onların istifadəsinə verilir. Təbii ki, bütün bunların həlli üçün xeyli məbləğdə vəsait sərf olunur. Dövlət Neft Fondunda toplanan vəsaitlərin də böyük hissəsi məhz yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın sosial problemlərinin həllinə yönəldilir. Bu reallığı beynəlxalq maliyyə qurumlarının təmsilçiləri də etiraf edirlər ki, bu gün Azərbaycan Dağlıq Qarabağ problemini yaşamasaydı, iqtisadi qüdrəti indikindən qat-qat yüksək olardı. Baxmayaraq ki, ölkəmiz müharibə şəraitindədir, uğurlu daxili siyasəti ilə iqtisadiyyatını sürətlə inkişaf etdirdi, beynəlxalq aləmdə dinamik iqtisadi tərəqqiyə malik ölkə kimi tanınır və qəbul olunur.

Dünya dövlətlərinin, təşkilatların təmsilçiləri də Azərbaycan Dövlət Neft Fondunun fəaliyyətində şəffaflıq prinsipini qorumasını yüksək dəyərləndirir, bu amilin ölkəmizin inkişafında rolunu xüsusi vurğulayırlar.

**Nail Rəhimzadə,**
***"İki sahil"***

*Bu məqalə Dövlət Neft Fondunun 10 illik yubileyi ilə əlaqədar olaraq Fond tərəfindən Fondun fəaliyyəti barədə Azərbaycan ictimaiyyətinin məlumatlandırılması məqsədilə keçirilən jurnalistlər üçün "Ən yaxşı analitik məqalə" müsabiqəsinə təqdim olunur.*